# Sevgi kimi əbədi poeziya

Şair Hamlet İSaxanlinin şerləri haqqinda oxucu düşüncələri

**Sevil Gültən**

Şair Hamlet Isaxanlının şerlərilə ilk tanışlığım bir neçə il əvvəl oldu. O, televiziya verilişlərindən birinin qonağı idi. İlk eşitdiyim şer "İkimizdən birimiz" adlanırdı.
Şeri dinləyərkən nədənsə mənə elə gəldi ki, şair təkcə öz duyğularını yox, həm də mənim, eləcə də neçə sevən qəlbin hisslərini ifadə edib.

**Bizsiz də həyat vardı,**
**Boş qalmazdı yerimiz;**
**Qiyamətmi qopardı,**
**Ikimizdən birimiz**
**Dünyaya gəlməsəydik?**

Kim bilir, bəlkə də şerin gücü onun çoxlarının duyğularını əks etdirməsindədir? "Bir qəlbdəki duyğular milyonlara ruh verərək" neçə könüldə özünə məskən salırsa, bu, sənətin qələbəsi, sözün qüdrəti deyilmi? Öz ürək çırpıntılarını poetik bir dillə sözə çevirən və o sözləri ilə neçə ürəklərdə ürək kimi döyünmək şair xoşbəxtliyi deyilmi? Şair Hamlet Isaxanlının bir şerindən başlanan yol məni onun poeziya dünyasına apanb çıxartdı. Mən onun "Təzadlar"ını oxudum. Öz könlünə "Duyğu zirvəsində" yaşamağı tövsiyə edən, Arzuya hədd qoyma, könül, Ömrümüzə şəfəq dolsun, Yaşa duyğu zirvəsində!- deyən şairin “Dərd”ini bildim:

**Dərdim dağa dönübdür,**
**Başı dərddən açılmaz.**
**Eşq dərdi yaman dərddir,**
**Eşq dərdindən qaçılmaz.**

Şairin dərdini biləndən sonra "Hicran"a necə dözməsi mənə əyan oldu. "Payız qışı soraqlayanda, dodaq susub göz ağlayanda, şaxta vurub buz bağlayanda donmayan" şairin duyğuları mənə də doğmalaşdı:

**Hicran min cür oyun qurdu,**
**Kim əl qatdı, kim buyurdu?**
**Kədər cumdu ordu-ordu,**
**Nə mən yendim, nə sən yendin.**

Şairlə birlikdə mən də onun “Keçmiş”ine qayıtdım:

**Gələcək arzumdur, keçmiş xəyalım,**
**Biri əlçatmazdır, biri ünyetməz.**
**Birindən pay umar eşqim, amalım,**
**Birinin həsrəti, nisgili bitməz.**

Şair ömrünün “Işıq və qaranlıq” da keçən "Ömür yolu"na mən də nəzər saldım.

**Ömür yolu yol deyil ki...**
**Ömür yolu bircə andır**

- deyən şairin "uzandıqça təzələnən, çağlayan, gah yüksəlib, gah enən, gah açıq, gah duman olan, həm məkan, həm zaman olan ömür yolu" ilə sanki mən də addımladım. Özümün ömür yoluma boylananda onun da bircə an olması qənaətinə gəldim. Onun "Dünya"sına daxil olduqda, "Zərif şamdır hər yaranan, yanır, yanır, yoxa çıxır, Kim yandırıb, kim söndürür, bu gərdişə kimlər baxır? Göylər sonsuz, vaxt hüdudsuz, bilinməyir əvvəl-axır, Ənginlikdən ağıl çaşır, tanrı ahəngidi dünya" - deyib qəlbindəki təlatümlərdən lərzəyə gələn şairin "Baş açmadım bu dünyadan" pıçıltısını eşitdim:

**Aləm sirdir, qalaq-qalaq,**
**Oxuyuruq varaq-varaq,**
**Təbiətdə ahəngə bax,**
**Od alsam da bu ziyadan,**
**Baş açmadım bu dünyadan.**

Onun "Təzadlar"ını oxuduqca gah eşq mülkünə ayaq basan aşiqin "Sən həyatdan dadlısanmış" "Etiraf"ı ilə tanış oldum, gah da "Möcüzə gecə"nin əsiri olan şairin "Qədim sual"ları məni bir daha onun "Şer yolu" na baxmağa vadar etdi.

"Tək qalmaq istəyirəm" - deyən şair.

**Təklik -**
**flkrimin süsləndiyi**
**ən uca yüksəklik.**
**Təklik-**
**xəyalımın bəsləndiyi**
**ən xoş gerçəklik**

- misralarını oxuyandan sonra nə üçün şairin "Tək qalmaq istəyirəm" deməyi mənə aydın oldu. Başa düşdüm ki "asta yağan yağışlara, dağ başına düşən qara, göydə gəzən buludlara vurulan" şair nə üçün eldən-elə qanad açandan sonra "Uşaqlıqda qalan buludlar"ı arayıb axtarır.
Onu məst eləyən "İnciçiçəyi"nə müraciətlə "Səni sevdim çox sadəcə" deyən şairin sevgi dolu sətirlərini oxuyub "Gözəldir" qənaətinə gəldim:
Səni sevdim gündən-günə daha dolğun, daha incə, Düşünmədən, daşınmadan, bər-bəzəksiz, çox sadəcə.

Səni sevdim yerə həsrət yağış kimi, leysan kimi, Səni sevdim gözəlliyə heyran olan insan kimi...
**Sadəcə, çox sevdim səni,**
**Səni sevdim çox sadəcə!...**

"Mahnılarda anılmayan, dastanlarda adı olmayan aşiq"in şerləri əbədi yaşayacaq.
**Cismani varlığım yetəcək sona**
**Könüllər mülkünə qalır gümanım**

- deyən şairin gümanının gerçəkləşəcəyinə inandım.İnandım ki, bundan sonra hələ neçə könül mülkü onun sevgi şerləri ilə isinəcək. Həsrətdən, hicrandan yorulanları "Vüsal həsrətindəyəm" şeri ümidli olmağa səsləyəcək. Beləcə "Təzadlar"”la dolu bir ömrün poeziyası ürəyimdə özünə məskən saldı.
Keçən il isə "Ölümə nə var ki, gülüm?! Yaşamaqdır bu dünyada ən ağır iş..." - deyən, "bir çiçək qoxusu ilə yaddaşında keyləşib qalan həzin, şirin xatirələri oyanan" şairin "Bu da bir həyatdı" adlı kitabı mənim, eləcə də neçə-neçə oxucunun görüşünə gəldi. Bu kitabı oxuduqca

**Şair olanın içində**
**Gərək ilahi nur olsun**

- misralarının təsirilə "şer demək, nəğmə qoşmağın bir həssas qəlb nişanı" olduğuna mən də inandım. "Yamanca kövrəkdi qəlbim" deyən, ruhu çılğın, qəlbi küskün şairin "Məhbus nəğməsi" həzin, qəmli bir melodiya kimi ruhumu oxşadı. Bir şair "Səs"ini eşitdim. Hər şeydən təsirlənən, təbiət gözəlliklərindən məst olan, "Od kökü üstə bitər" deyib doğulub boya-başa çatdığı kəndə "Ziyarət"ə gedən şairin duyğularını özümünkü hesab etdim. Nə qədər ki, insanlıq var, sevgi var, onun da şerləri sevən qəlblərə hakim olacaq. Hamlet İsaxanlının şeirləri duyğu ilə yoğrulub,sevgi odu ilə ürək adlı bir təndirdə bişəndən sonra işıq üzü görür, kağıza köçürülür. Buna görə də onun şerləri əbədi olacaq- sevginin özü kimi!!!